

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 161 (23.072)

29 avqust 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Avqustun 28-də Bakı Bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən "Qu quşları" fəvvarə kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva kompleksin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada görülən işlər barədə məlumat verilib.

Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub, təbii daşlar üzərində heykəltəraş Murad Sücəddinov tərəfindən 7 qu quşu heykəli hazırlanıb.

Dövlətimizin başçısı və birinci xanım Dənizkənarı Milli Parkda kiçik Venesiya şəhərciyinin ərazisinə də baxıblar. Burada yeni yer örtüyü salınıb, əlavə ağaclar əkilib, ətraf abadlaşdırılıb.

* * *

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışında iştirak ediblər.



## Nəqliyyat xidməti yeni inkişaf mərhələsinə qədəm qoyub

***Hər bir ölkənin inkişafını şərtləndirən mühüm göstəricilərindən biri də onun müasir yol-nəqliyyat infrastrukturuna malik olmasıdır. Çünki yollar yük və sərnişin daşımalarının rahat, təhlükəsiz və vaxtında həyata keçirilməsini təmin edən əsas vasitədir. Buna görə də tikinti-quruculuq tədbirləri sırasında yol-nəqliyyat sektoru strateji əhəmiyyət daşıyır. Bu baxımdan ümummilli lider Heydər Əliyevin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" fikri hər zaman öz aktuallığı ilə seçilir. Ulu öndər Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizdə yol infrastrukturunu diqqət mərkəzində saxlayıb, nəqliyyat sahəsinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Bu strateji xətt muxtar respublikamızda da uğurla davam etdirilir, yol infrastrukturunun inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirilir.***



Ötən dövrdə ölkə başçısı cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi, Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd, uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolları, 25,4 kilometr uzunluğa malik, habelə uzunluğu 87 kilometr olan Naxçıvan-Sədərək, 34 kilometrlik Naxçıvan-Culfa və uzunluğu 88,8 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları müasir tələblər səviyyəsində yenidən qurularaq istifadəyə verilib.

Bu sahədə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Belə ki, 2018-ci ilin yanvar-iyun aylarında Şərur rayonunun Xanlıqlar-Vərməziyar-Ərəbyengicə-Qarahəsənli-Çəmənli, Kəngərli rayonunun Qarabağlar kəndində avtomobil yollarının yenidən qurulması başa çatdırılıb. Culfa-Ordubad magistral avtomobil yolunun, Naxçıvan şəhərdaxili avtomobil yollarının, həmçinin Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarının bir neçə kənd yaşayış məntəqələrində avtomobil yollarının yenidən qurulması davam etdirilir.

Ötən dövrdə Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir avtobus parkının istifadəyə verilməsi, Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal komplekslərinin inşa olunması Naxçıvanın qonşu ölkələrlə sərnişindaşıma xidmətinin yaxşılaşdırılmasına öz töhfəsini verib.

Bu gün əhali artımına uyğun olaraq muxtar respublikada müasir yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması tədbirləri də uğurla davam etdirilir. Muxtar respublikanın avtomobil yollarında idarəetməni daha da təkmilləşdirmək və həyata keçirilən işlərin səmərəliliyini artırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 14 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi yaradılıb və agentliyin yeni inzibati binası istifadəyə verilib. Cari ilin ötən dövründə müasir yol infrastrukturunun qurulması məqsədilə yeni texnikalar alınıb gətirilib. İki asfalt-beton zavodunun quraşdırılması hazırda davam etdirilir. Bundan əlavə, Naxçıvan şəhərində 400 yerlik avtomobil parkı da tikilməkdədir. Naxçıvan Beynəlxalq Hava Limanı ərazisində maşın və mexanizmlər üçün qaraj kompleksinin yaradılması tamamlanıb.

Muxtar respublikada müasir dəmir yolu təsərrüfatının yaradılması da diqqət mərkəzində saxlanılır. Ötən dövrdə dəmir yolu təsərrüfatı 8 yeni sərnişin vaqonu ilə təmin olunub, Ordubad dəmir yolu sərnişin vağzalı və 4 saylı yol məntəqəsi binalarının, Ordubad yol sahəsinin inzibati binasının tikintisi, Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri başa çatdırılıb. Culfa stansiyasında İstismar Vaqon Deposunun tikintisi, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasının əsaslı təmiri isə hazırda davam etdirilir.

Təbii ki, nəqliyyat sektorunda həyata keçirilmiş tədbirlər yük və sərnişin daşınmasına öz müsbət təsirini göstərib. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ilin yanvar-iyun aylarında muxtar respublikada nəqliyyat sektorunda 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,8, sərnişin daşınması isə 2 faiz artıb. Yük və sərnişin daşınmasından, bütövlükdə, 26 milyon 904 min manat gəlir əldə edilib ki, bu da bir il öncəki göstəricidən 3,5 faiz çoxdur.

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq hazırda muxtar respublikanın yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir, marşrut xətlərində fəaliyyət göstərən avtobuslar yenilənir. Bu il iyulun 12-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 5 yeni avtobus təqdim olunub. Yeni avtobusların alınıb istifadəyə verilməsi sərnişindaşıma xidmətinin nümunəvi təşkilinə hesablanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin yaradılması haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanı isə avtomobil nəqliyyatı sahəsində idarəetməni təkmilləşdirmək məqsədi daşıyır. Bir sözlə, 2018-ci ilin ötən dövrünə qısa nəzər saldıqda görünür ki, hazırda özünün sürətli inkişaf dövrünü yaşayan muxtar respublikanın yol-nəqliyyat xidməti də artıq yeni inkişaf mərhələsinə qədəm qoyub.

✍ Səbuhi HƏSƏNOV

***Müasir iqtisadiyyat üçün xas olan nağdsız hesablaşmalar pul dövriyyəsinin təkmilləşdirilməsi üçün zəruri olan mexanizmlərdən biridir. Pulun elektron dövriyyəsi iqtisadi və sosial həyatda bir sıra problemləri kökündən həll etməyə imkan verdiyi üçün bu sahəyə diqqət də artırılır. Belə ki, nağdsız hesablaşmalar pul dövriyyəsini daha da sürətləndirir, şəffaflığa imkan yaradır.***

## Elektron ödənişlərin əhatə dairəsi genişləndirilir

Bu baxımdan muxtar respublikamızda müasir elektron bankçılıq sahəsində fəaliyyətin daha da genişləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq cari ildə də nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilməkdədir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata əsasən artıq muxtar respublika sakinləri ödəniş kartları vasitəsilə vergi və rüsumlarının, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumların, gömrük rüsumlarının, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarının, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsini elektron ödəniş formasında apara bilirlər.

Nağdsız ödənişlərin genişləndirilməsi məqsədilə maarifləndirici və stimullaşdırıcı tədbirlərə üstünlük verilir. Belə ki, iyun ayında Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində bir sıra nazirlik və idarə əməkdaşlarının iştirakı ilə maarifləndirici seminar-treninq keçirilib. Bu tədbirdə idarə ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Maliyyə, Vergilər nazirlikləri, Naxçıvan Poçt, Naxtel, "Mastercard" şirkətinin nümayəndələri, muxtar respublikada fəaliyyət göstərən banklar və mətbuat orqanları iştirak ediblər. Digər bir tədbir dünyanın aparıcı ödəniş texnologiyaları şirkətlərindən biri olan "Mastercard" ilə birlikdə pilot olaraq seçilmiş Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödənişlərin istifadəsinin stimullaşdırılması məqsədilə istehlakçılar və təsərrüfat subyektləri üçün kampaniyaların təşkili olub. Hazırda davam edən bu kampaniyaya cari ilin may ayında "Cahan" AVM-də start verilib. Belə ki, "Mastercard" istifadəçiləri "Cahan" AVM-də 30 manatdan artıq ödəniş etdikdə onlar yerindəcə təklif olunan hədiyyələrdən birinə sahib olurlar. Kampaniya çərçivəsində artıq 200-dən çox vətəndaşa müxtəlif hədiyyələr verilib. Bundan əlavə, təsərrüfat subyektləri arasında nağdsız ödənişlərə marağın artırılması məqsədilə yenə "Mastercard" ilə birgə sentyabr ayında kampaniya keçirilməsi nəzərdə tutulur. Kampaniyanın məqsədi nağdsız ödənişə üstünlük verən mağaza sahiblərinin mükafatlandırılmasıdır.

Başqa bir stimullaşdırıcı tədbir əhalinin nağdsız ödənişlərə marağının artırılması məqsədilə Vergilər Nazirliyi ilə birgə mükafatlandırma tədbirlərinin keçirilməsi olub. Belə ki, bu tədbirlər çərçivəsində, ümumilikdə, muxtar respublika üzrə 1 iyun 2018-ci il tarixə nağdsız ödənişə üstünlük verən 1844 fiziki şəxsə 120 min manat dəyərində müxtəlif hədiyyələr paylanılıb, o cümlədən 2018-ci ilin ilk altı ayı ərzində 312 fiziki şəxsə 20 min manat dəyərində müxtəlif qiymətli hədiyyələr verilib.

Muxtar respublikamızda elektron ödəniş sistemlərinin inkişaf etdirilməsi üçün vacib olan POS-terminalların quraşdırılması da diqqət mərkəzindədir. Cari ilin ilk 6 ayı ərzində muxtar respublika ərazisində 9 POS-terminal quraşdırılaraq 1 iyul 2018-ci il tarixə onların sayı 1269-a çatdırılıb. Nəticədə, 2018-ci ilin yanvar-iyun ayları ərzində muxtar respublikada POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 18 milyon 128 min manata çatıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 212 min manat çoxdur. Aparılan nağdsız ödənişlərin 5 milyon 831 min manatı POS-terminallar, 12 milyon 297 min manatı isə internet və digər ödəniş vasitələri ilə həyata keçirilib.

Bununla yanaşı, vətəndaşlara müasir bank xidməti göstərilməsi məqsədilə cari ilin altı ayı ərzində 5 yeni bankomat quraşdırılaraq ümumi sayı 109-a çatdırılıb. Bu dövrdə təkcə "Naxçıvanbank" ASC tərəfindən 9 yeni ödəniş terminalı əhalinin istifadəsinə verilib.

Hazırda muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların ümumi sayı 269 min 98-ə çatıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 15 min 931 ədəd çoxdur.

İqtisadiyyat Nazirliyi ilə birgə özəl sektorda işçilərin əməkhaqlarının nağdsız formada ödənilməsinin təşviq edilməsi istiqamətində sahibkarlıq subyektləri ilə maarifləndirmə işləri aparılıb. Görülmüş işlərin nəticəsində hüquqi şəxslər tərəfindən işçilərin əməkhaqlarının kart vasitəsilə ödənməsi təmin olunub və bu istiqamətdə işlər davam etdirilir.

Elektron ticarət nağdsız ödənişlərə əsaslanan və müasir dövrdə daha çox populyarlıq qazanan iqtisadi fəaliyyət növlərindən biridir. Muxtar respublikada istehsal olunan mal və məhsulların elektron ticarət vasitəsilə satışının təşkil olunması məqsədilə milli dəyərləri əks etdirən əşyaların, əl işlərinin internet kataloqunun hazırlanması və elektron satışlarının təşkil edilməsi üzrə dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində 37 ixracpotensiallı müəssisəyə aid 339 çeşiddə məhsulun və 484 əl işi sənət əsərinin internet kataloqu hazırlanaraq *biznesmerkez.info.az, nsk.orq.az* və *pronak.az* saytlarında yerləşdirilib.

Naxçıvan sürətlə inkişaf edir və bu gün muxtar respublikamızın ödəniş infrastrukturu dünya praktikasında mövcud olan ənənəvi ödəniş sistemləri baxımından ən müasir tələblərə cavab verir və informasiya texnologiyaları sahəsində ən son nailiyyətlərə əsaslanır. Bunlar da, öz növbəsində, nağd pul dövriyyəsinin məhdudlaşdırılmasının, təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinin və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin mühüm şərtlərindəndir.

✍ Əli CABBAROV

## Həyata keçirilən iqtisadi tədbirlər Naxçıvanın sənaye bölgəsi kimi tanınmasına imkan verir

*Təbii şərait, xammal zənginliyi ötən əsrin 70-ci illərindən muxtar respublikamızda sənayenin müxtəlif istehsal formalarının inkişaf etdirilməsinə şərait yaradıb. Belə ki, ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra Naxçıvan Muxtar Respublikasının sənayesi Azərbaycan iqtisadiyyatında aparıcı yerlərdən birini tutaraq intensiv inkişaf yoluna qədəm qoyub.*



Ulu öndərin muxtar respublikaya göstərdiyi böyük qayğı nəticəsində 1970-1985-ci illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün Naxçıvan Muxtar Respublikasına 900 milyon manat sərmayə qoyulub, müxtəlif istehsal müəssisələri tikilib istifadəyə verilib. Ötən əsrin sonlarında SSRİ-nin dağılması nəticəsində iqtisadi əlaqələrin pozulması və başqa amillər muxtar respublika iqtisadiyyatına da təsirsiz ötüşməyib, digər sahələr kimi sənaye də ağır vəziyyətə düşüb. Yalnız 1993-cü ildə görkəmli dövlət xadiminin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, muxtar respublikanın sənayesində də əsaslı islahatlar aparılıb və bunun nəticəsində sənaye məhsulu istehsal edən dövlət və qeyri-dövlət bölmələrində yaradılmış müəssisələr hesabına ümumi sənaye məhsulunun həcmində hər il dinamik artım olub.

Ötən illər ərzində muxtar respublika sənayesi özünəməxsus inkişaf yolu keçib. Belə ki, 1995-2001-ci illərdə aparılmış məqsədyönlü tədbirlər nəticəsində region iqtisadiyyatında yaranmış durğunluq tamamilə aradan qaldırılıb, 2001-ci ildə sənayenin ümumi məhsulunun həcmi 1995-ci illə müqayisədə 1,7 dəfə artıb. Sonrakı illərdə isə muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib, müxtəlif dövlət proqramları hazırlanıb. Belə ki, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)”nın əsas məqsədi muxtar respublikanın yerli təbii sərvətlərindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaqdan ibarət olub. Həyata keçirilən islahatların davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının uğurla başa çatdırılması, Ali Məclis Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının hazırda davam etdirilməsi nəticəsində ciddi iqtisadi uğurlara nail olunub və sürətli inkişaf üçün zəngin potensial formalaşıb. Təkcə “Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın uğurlu icrası muxtar respublika sənayesinin 5,2 dəfə artımına səbəb olub. İcrası hazırda davam etdirilən dövlət proqramında isə sənayeləşmə siyasətinə uyğun olaraq muxtar respublikada yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması, dövlət əhəmiyyətli müəssisələrin fəaliyyətinin dəstəklənməsi, xarici və yerli investisiyaların cəlb edilməsi, özəl müəssisələrin fəaliyyətinə dəstək verilməsi, ixtisaslaşmış və ümumi təyinatlı sənaye parklarının yaradılması istiqamətində işlərin davam etdirilməsi nəzərdə tutulub. Müasir istehsal infrastrukturuna malik sənaye parklarının yaradılması regionda sənaye sahələrinin inkişafının təmin edilməsini nəzərdə tutan dövlət siyasətinin mühüm bir hissəsini təşkil edir. Çünki sənaye parklarının yaradılması iqtisadiyyatın ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyəti, idxalı əvəz edən məhsulların istehsalının artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi vacib məsələlərin həlli baxımından xüsusilə əhəmiyyətlidir. Sənaye parklarının bu əhəmiyyətli cəhətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədilə həmin parkların yaradılmasına başlanılıb. Bu sahədə müvafiq qanunvericilik bazası baxımından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş “Sənaye parkları haqqında Əsasnamə” sənaye parklarının yaradılmasına, idarə edilməsinə və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsinə geniş imkanlar açıb. Ümumilikdə götürsək, ötən dövrdə muxtar respublikada özəl sektorun inkişafına göstərilən dövlət qayğısı nəticəsində yeni istehsal müəssisələrinin sayı artıb, yerli istehsalın həcmi genişlənib. Məsələn, əgər 1996-cı ildə muxtar respublikada 10 adda məhsul istehsal olunurdusa, bu gün muxtar respublikada 382 növdə məhsul istehsal edilir. Onların 126 növü ərzaq, 256 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, sənaye sahibkarlığı artıq muxtar respublikada özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Vaxtilə ümumi daxili məhsul istehsalında aqrar sahənin ağırlıq təşkil etdiyi muxtar respublikada bu gün aqrar-sənaye kompleksi böyük üstünlüyə malikdir. Hazırda muxtar respublikada avtomobil və tikinti materialları, ərzaq və məişət əşyaları istehsalı ilə məşğul olan çoxsaylı müəssisələr fəaliyyət göstərir. Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq muxtar respublikada 2018-ci ilin yanvar-iyul aylarında 1 milyard 505 milyon 444 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 3318 manatı ötüb.

Hazırda muxtar respublikada aparılan uğurlu sənayeləşmə prosesi və yeni məhsul növlərinin istehsalı bu sahənin dinamik inkişafını sürətləndirib. Belə ki, bu ilin yanvar-iyul aylarında istehsal olunan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutub. Bu dövrdə sənaye üzrə 621 milyon 450 min manat dəyərində məhsul istehsal edilib. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

Sənayedə istehsalın həcminin artması bəhs olunan dövrdə ixraca da öz təsirini göstərib və nəticədə, 2018-ci ilin yanvar-iyul aylarında 249 milyon 147 min 700 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 221 milyon 145 min 500 ABŞ dolları təşkil edib, 193 milyon 143 min 300 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Bu gün muxtar respublikamızda sənayeləşdirmə siyasəti uğurla həyata keçirilir. İqtisadiyyatın dinamik inkişafını asanlaşdırmaq və rəqabətliliyi artırmaq üçün qabaqcıl elmi və texnoloji nailiyyətlərə əsaslanan sənaye sahələrini inkişaf etdirmək, bu sferaya yerli və xarici sərmayələri cəlb etmək, ixtisaslı mütəxəssis bazası yaratmaq istiqamətində məqsədyönlü addımlar atılır. Bütün bunlar isə yaxın gələcəkdə Naxçıvanın həm də inkişaf etmiş sənaye bölgəsi kimi tanınmasına şərait yaradır.

**Səbuhi HƏSƏNOV**

***Bu gün muxtar respublikada yaradılan əlverişli sahibkarlıq mühiti iqtisadi sahədə nailiyyətlər əldə olunmasına, bu sahənin inkişafına təkan verib. Yeni iş yerləri açılır, əhalinin maddi rifah halı daha da yaxşılaşır.***

## Yeni heyvandarlıq təsərrüfatı yaradılıb



Babək rayonunda da istehsal etdikləri məhsulları ilə alıcı rəğbəti qazanan iş adamlarının hər biri göstərilən dövlət dəstəyindən yararlanaraq, istehlakçı etimadını qazanaraq öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa səy göstərir.

Bu il fevralın 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla keçirilən görüşündə yeni istehsal və xidmət sahələrinin yaradılması üçün Babək rayonunun Qahab kəndindən İqbal Qasımova, Nehrəm kəndindən Məhərrəm Niftəliyevə, Tofiq Hüseynova və Aşağı Buzqovlu Məhərrəm Eyvazova da güzəştli kreditlərin çekləri təqdim edilmişdi.

İqbal Qasımov aldığı 10 min manat güzəştli kredit hesabına yeni heyvandarlıq təsərrüfatı qurub. Əvvəlcə Nehrəm kəndində 40 xırdabuynuzlu heyvan alan İqbal bu gün onların sayını 80-ə çatdırıb. Mövsümdə 10 quzu satan sahibkar əldə etdiyi vəsait hesabına 2 iribuynuzlu mal-qara da alıb.

O deyir ki, təsərrüfatımı genişləndirmək çoxdankı arzum idi. Artıq buna nail ola bilmişəm. Kəndimizdən yuxarıda yaxşı örüş sahələri var. Ümumiyyətlə, muxtar respublikada aqrar sahənin dinamik inkişafı üçün münbit baza var və mən də bundan bəhrələnə bildim. İstəyirik ki, dövlətimizin göstərdiyi qayğının müqabilində biz də muxtar respublikamızda heyvandarlıq məhsullarına olan tələbatın ödənilməsinə öz töhfəmizi verək.

Qeyd edək ki, təsərrüfatçı otbiçən və yükdaşıyan maşınları hesabına ailəsinin illik ruzisini təmin edə bilir. İşgüzar ailə başçısı taxılçılıqla da məşğul olur. Bu il 4 hektara yaxın sahədən 8 ton məhsul tədarük edən fermer ailə təsərrüfatını inkişaf etdirməyi qarşısına məqsəd qoyub.

**Muxtar RZAZADƏ**

*İstehsal müəssisələri*

## “Azelektrod” Məhdud Məsuliyyətli Cəmiyyətində keyfiyyət amili üstün tutulur

*Daxili bazarın çeşidli məhsullarla təminatında istehsal müəssisələri mühüm əhəmiyyət kəsb edir. İqtisadiyyatın bütün sahələrini əlaqələndirmək məqsədilə son illər muxtar respublikamızda dövlət qayğısı nəticəsində onlarla belə müəssisə fəaliyyətə başlayıb. Onlardan biri də “Azelektrod” Məhdud Məsuliyyətli Cəmiyyətidir.*

Yaradılmasından cəmi bir il ötməsinə baxmayaraq, müəssisə muxtar respublikanın inşaat sektorunda xüsusi çəkisi olan subyektlərdən birinə çevrilib. Burada keyfiyyətli tikinti materialları istehsal olunur ki, bir vaxtlar muxtar respublika sakinlərinin inşaat işləri həmin materialların qıtlığı səbəbindən aylarla gecikir, bəzən isə onlar tələbat duyduqları materialları almaq üçün xarici ölkələrə yollanır, xeyli xərc çəkməli olurdular. İndi isə yerli istehsal hesabına bu problemlər tamamilə aradan qaldırılıb.

“Azelektrod” MMC-nin fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün bu günlərdə həmin ünvanda olduq. Müəssisənin rəhbəri Zamin Abbasov bildirdi ki, muxtar respublikanı tikinti materialları ilə təmin edəcək müəssisələrin yaradılmasına ehtiyac var idi. Mən də sahibkar olaraq həmin sahənin daha vacib və gəlirli olmasını düşünərək işlərimi bu istiqamətdə qurmağa çalışdım. Təbii ki, dövlət dəstəyi olmasaydı, müəssisəni yaratmağa gücüm çatmazdı. Buna görə də müraciət etdim və mənə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 480 min manat vəsait ayrıldı. Göstərilən qayğıdan ruhlanaraq istehsal etdi-




yimiz məhsulları daxili bazarın tələbatını nəzərə alaraq çeşidlədik. Ən əsası isə keyfiyyət amilini qorumağa çalışdıq. Çünki indiki sərbəst bazardakı rəqabət nəticəsində keyfiyyətli məhsullar üstünlük qazanır.

Hazırda müəssisədə “Az-NaxKim” əmtəə nişanı ilə qeydiyyatdan keçmiş kafel, metlax, məsaməli beton-blok, mərmər və qranit yapışdırıcıları (ağ və boz rənglərdə), kimyəvi quru qarışıqlar, hazır suvaq qarışığı, beton səth sərtləşdirici, özüyayılan döşəmə qarışığı, təmir suvağı, aralıq doldurma qarışığı (bütün rənglərdə) kimi tikinti işlərində çox zəruri olan məhsullar istehsal edilir. Buradakı avadanlıqlar Türkiyə Respublikasından alınıb. İstifadə edilən xammalların – əhəng, kalsid, gips, sement və qumun yerli məhsullar olması isə keyfiyyət amilinə təsir göstərir, eyni zamanda qiymətlərin də daha münasib olmasını şərtləndirir.

Müəssisədə istehsal edilən məhsullarla tanış olarkən buraya sifariş vermək üçün gələn usta Səxavət Bayramovla qarşılaşdıq. Onunla söhbət əsnasında dedi: – 20 ildən artıqdır ki, evlərin təmiri işi ilə məşğulam. İşin çətinini də görmüşəm, asanını da, keyfiyyətlisini də, keyfiyyətsizini də. Vaxt var idi ki, camaat sadə bir təmirlə kifayətlənirdi. Zaman ötdükcə, belə yeni məhsullar istehsal olunduqca onların zövqləri də dəyişir. Hər kəs evində keyfiyyətli materiallarla ən müasir təmiri, gözəl görüntünü arzu edir. Bu məhsulların istehsalı, inanırsınız, biz ustaların da əməyini yüngülləşdirib. 20 il bundan əvvəl özüyayılan döşəmə qarışığı var idi? Əlbəttə, yox. Min bir əziyyətlə betonu hamarlayır, düz səth almağa çalışırdıq. Kafel-metlax yapışdırıcıları çox keyfiyyətsiz olurdu. İş bitəndən bir müddət sonra ev sahibinin giley-güzarı başlanırdı.

Usta onu da dedi ki, bu müəssisə fəaliyyətə başlayandan mən də burada istehsal olunan materialların daimi alıcısına çevrilmişəm. Həmin materiallardan təmirində istifadə etdiyim evlərdə yaşayanların hələ heç bir şikayəti ilə qarşılaşmamışam. Ötən illərin təcrübəsinə əsasən deyə bilərəm ki, həqiqətən də, bugünkü Naxçıvanla 20-25 il əvvəlki Naxçıvan arasında inşaat materiallarının bolluğu və çeşidliliyi baxımından da çox fərq var. Bu isə yeni tikintilərin aparılmasını asanlaşdırıb, onun keyfiyyətini artırıb.

Müəssisədə “Azelektrod” əmtəə nişanı ilə polad və dəmir qaynağı üçün 2,5, 3,2 və 4 millimetr qalınlıqda elektrodlar da qablaşdırılır. İş prosesi Türkiyə Respublikasından alınmış avadanlıqlar vasitəsilə həyata keçirilir. Zamin Abbasov söhbət zamanı onu da bildirdi ki, gələn ilin birinci yarısında müəssisə öz gücü hesabına elektrod istehsalına başlayacaqdır.

“Azelektrod”un istehsal gücü inşaat materialları üçün saatda 5 ton, elektrod üçün saatda 1 tondur. Müəssisədə istehsal olunan məhsulların yerli bazarlarla yanaşı, Azərbaycanın bütün rayonlarında və Gürcüstanda da satışı təşkil olunur. Burada istehsal edilən məhsulların reklamları yerli və respublika televiziya kanallarında yayımlanır. Bu məqsədlə Naxçıvan Biznes Mərkəzində stend də təşkil olunub.

Qeyd edək ki, müəssisədə 8 nəfər işçi çalışır. Onlardan 3 nəfərinin bu sahə üzrə təhsili mütəxəssis olduğunu bildirən müəssisə rəhbəri yaxın gələcəkdə daha keyfiyyətli məhsul istehsalına nail olunması üçün belə kadrların sayının artırılacağını xüsusi vurğuladı. İşçilərə yaradılan şəraitdən də danışaraq dedi ki, onlar xüsusi geyimlə təmin olunublar. İş vaxtında yemək və çay müəssisə tərəfindən verilir, işçilər nəqliyyat xidməti ilə də təmin ediliblər. Yaradılan bu şərait isə müəssisənin daim keyfiyyət amilinin qorunduğu ünvan kimi tanınmasına, gələcəkdə fəaliyyətini daha da genişləndirməsinə imkan verir.

**Mətanət MƏMMƏDOVA**

Yeni nəşrlər

# “Naxçıvanın məhkəmə tarixi” adlı kitab çapdan çıxıb

***Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan Naxçıvan Muxtar Respublikasının məhkəmə orqanları uzun və şərəfli bir tarixi inkişaf yolu keçmişdir. Bu yol Naxçıvan Muxtar Respublikasının, bütövlükdə isə Azərbaycanın hüquq tarixi ilə bağlı olub ölkəmizin və muxtar respublikamızın keçdiyi çox mürəkkəb və əlamətdar tarixi hadisələrlə zəngin bir dövrü özündə təcəssüm etdirir. Naxçıvanın məhkəmə tarixinin müxtəlif şərait və dövrlərə aid konkret fakt və materialların təhlil olunaraq ümumiləşdirilməsi əsasında öyrənilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır.***




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi əsasında hazırlanan Naxçıvanın məhkəmə tarixinə həsr olunmuş “Naxçıvanın məhkəmə tarixi” adlı kitab bu mərama xidmət edən dəyərli tədqiqat əsəridir. Giriş, beş fəsil və əlavələrdən ibarət olan kitab 280 səhifədir və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çap olunub.

Müəlliflər müxtəlif dövrlərdə məhkəmələr haqqında qüvvədə olmuş qanunvericilik aktlarını və məhkəmə təcrübəsini təhlil edərək, VII əsrdən bu günədək bəşər sivilizasiyasının qədim məskənlərindən olan Naxçıvanda məhkəmə orqanlarının yaranması və onların fəaliyyət dairəsinin əsas prinsiplərini tədqiq ediblər.

Kitab müxtəlif arxiv sənədləri, dövri mətbu materiallar, mövcud elmi ədəbiyyatlar əsasında hazırlanıb. Onun yazılmasında, həmçinin görkəmli Azərbaycan tarixçilərinin, ərəb və farsdilli müəlliflərin əsərləri, avropalı alimlərin və səyyahların gündəlikləri, qeydləri və məlumatları, habelə rəsmi internet resurslarından mənbə kimi istifadə olunub.

“Orta əsrlər dövründə Naxçıvanın tarixi” adlı I fəsildə VII-XV və XVI-XVII əsrlərdə Naxçıvanda məhkəmə orqanları və onların fəaliyyətləri araşdırılaraq bu barədə məlumat verilir. II fəsil “XVIII-XIX əsrlərdə Naxçıvanın məhkəmə tarixi” adlanır. Bu fəsildə XVIII əsrin əvvəllərində Osmanlı imperiyasının tərkibinə daxil olmuş “Naxçıvan sancağı” adlı inzibati ərazi bölgüsü tətbiq olunan bölgədə, həmçinin Naxçıvan xanlığı dövründə ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı tarixi materiallar təhlil olunub. Bu fəsildə çar Rusiyası dövründə Naxçıvanda fəaliyyət göstərən məhkəmələr, onların baxdıqları işlər və həmin işlərə dair statistik göstəricilər, bu dövrdə məhkəmələrdə işlərə baxılmasının və məhkəmə qərarlarının icrasının ciddi çatışmazlıqlarından söhbət açılır. Kitabın III fəsli “XX əsrin əvvəllərində Naxçıvanda məhkəmə orqanları”na həsr edilib. Bu fəsildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə, xüsusilə də Araz-Türk Respublikası zamanında Naxçıvanda məhkəmələrin tarixinə nəzər salınır. Burada məhkəmə hakimi və üzvlərinin adları çəkilir, eyni zamanda XX əsrin əvvəllərində bölgədə İslam hüququnun böyük önəm daşımasına, müəyyən mübahisəli problemlərin həllində ədalət mühakiməsinin şəriət qaydaları əsasında həyata keçirilməsi məsələsinə toxunulur. Həmin fəsildə, həmçinin ingilislərin ermənipərəst siyasətinə və erməni daşnaklarına qarşı Azərbaycan hökuməti və Naxçıvan rəhbərliyinin, yerli əhalinin apardığı gərgin və şərəfli mübarizələrdən də bəhs olunur. IV fəsildə “Sovet hakimiyyəti illərində Naxçıvanda məhkəmə quruluşu” tədqiq olunmuşdur. Bu fəsildə Naxçıvanda 1920-1930-cu illərdə sovet məhkəmə sisteminin formalaşdırılmasından danışılır, Naxçıvan MSSR-in məhkəmə sistemi Azərbaycan SSR və Naxçıvan MSSR-in 1937-ci il tarixli konstitusiyaları müstəvisində təhlil edilir. Naxçıvan MSSR-in məhkəmə sistemi tədqiqata cəlb olunur.

“Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətinin təşkili” adlanan V fəsil iki paraqrafdan ibarətdir. Adıçəkilən fəsildə 1991-2003-cü illərdə Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətinin təşkili də araşdırılır. 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə məhkəmə hakimiyyəti sahəsində bünövrəsi qoyulmuş köklü islahatlardan söhbət açılaraq qeyd olunur ki, ümummilli liderimizin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında ölkəmizdə məhkəmə hakimiyyətinin ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi müəyyən olunub. Konstitusiyanın 125-133-cü maddələrinin təhlili əsasında yazılan 7-ci fəsil, bütövlükdə, məhkəmə hakimiyyətinə həsr edilib. Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətinin statusu, muxtar respublikada fəaliyyət göstərən bütün məhkəmələrin ərazi yurisdiksiyaları və səlahiyyətlərindən geniş şəkildə söhbət açılan bu fəsildə görkəmli dövlət xadimi Heydər Əliyevin bütün ölkə ərazisini əhatə edən geniş diapazonlu məhkəmə-hüquq islahatları bütün təfərrüatı ilə tədqiq olunub. Həmin fəsildə müasir dövrümüzdə, daha dəqiq desək, 2003-cü ildən bu günədək Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətinin təşkilindən də bəhs olunur. Bu dövrü Azərbaycan Respublikasının məhkəmə sisteminin müasirləşdirilməsi mərhələsi hesab etmək olar ki, məhz bu illərdə məhkəmələrin işinin təkmilləşdirilməsi və onların beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə ölkəmizdə genişmiqyaslı məhkəmə-hüquq islahatları həyata keçirilib. Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi və demoqrafik inkişaf hüquq institutlarının təkmilləşdirilməsini, insan hüquqlarının müdafiəsi mexanizmlərinin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasını, əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsini zəruri etdiyindən bu istiqamətdə təkmilləşdirilmə həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2006-cı il 2 noyabr tarixdə “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” Fərman imzalanıb. Ümumilikdə, 2003-cü ildən indiki dövrədək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində muxtar respublikamızda fəaliyyət göstərən məhkəmələrin strukturunun təkmilləşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən mütərəqqi islahatlar bu fəsildə geniş şəkildə işıqlandırılıb.

Oxucuda aydın təsəvvür formalaşdırmaq məqsədilə kitaba əlavə edilən fotoarxiv Naxçıvanda məhkəmə orqanlarının keçdiyi uzun və şərəfli bir tarixi inkişaf yoluna vizual nəzər salmağa imkan verir.

Kitaba daxil edilmiş digər əlavələrdə isə Naxçıvan Muxtar Respublikasında məhkəmə orqanlarının fəaliyyətinə dair bir sıra normativ sənədlər verilib.

Yeni nəşrdə, bütövlükdə, Naxçıvanın məhkəmə orqanlarının keçdiyi uzun və şərəfli yolun geniş şəkildə, mənbələrə istinad edərək faktlar əsasında tədqiq edilməsi məqsədinə uğurla nail olunub.

Kitab məhkəmə və hüquq-mühafizə orqanlarının işçiləri, hüquqşünaslar, elmi işçilər, ali təhsil müəssisələrinin müəllim və tələbələri, habelə Naxçıvanın məhkəmə orqanlarının tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

***Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində sərnişindaşıma xidməti ilə məşğul olan sürücülər üçün növbəti seminar-müşavirə keçirilib.***

# Növbəti seminar-müşavirə keçirilib



Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin əməkdaşları Elxan Novruzov, Natiq Həsənov və idarənin baş mexaniki Budaq Əmirov çıxış ediblər. Çıxışlarda 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar qarşıda duran vəzifələr, nəqliyyatın təşkili və idarə edilməsi xidmətinin yüksəldilməsi, şəhərdaxili nəqliyyatda intizamın gücləndirilməsi barədə müzakirələr aparılıb.

Bildirilib ki, qış aylarında heç bir nöqsana yol verməmək üçün sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrinin sürücüləri işə məsuliyyətlə yanaşmalı, heç bir yayınma hallarına yol verilməməlidir. Xidmətin əməkdaşları nəqliyyat vasitələrinin qış aylarında texniki cəhətdən saz vəziyyətdə olmasını təmin etmək məqsədilə mütəmadi reydlər keçirəcək, sakinlərin istər şəhərdaxili, istərsə də rayon və kəndlərə işləyən avtobuslardan rahat istifadəsi təmin ediləcək.

Vurğulanıb ki, hazırda şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki bir daha nəzərdən keçirilir, qrafiklər daha da təkmilləşdirilir. Xətlərə çıxan avtobus və taksilərə texniki baxışlar təşkil olunur.

Qeyd edilib ki, mövsüm ərzində yüksəkkeyfiyyətli nəqliyyat xidmətinin təşkili üçün bütün lazımi tədbirlər həyata keçiriləcək.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

***Bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da təhsil siyasəti uğurla davam etdirilir, gənc nəslin hərtərəfli təhsil alması, peşə sahibi olması və vətənpərvər ruhda böyüməsi üçün ardıcıl tədbirlər görülür. Təhsil müəssisələrinin müasir tələblər səviyyəsində qurulması, onların hərtərəfli informasiya və kommunikasiya texnologiyaları, müasir kompüter dəstləri, elektron lövhələr və digər texnoloji avadanlıqlarla təmin edilməsi bu siyasətin bariz göstəricisidir. Bu da öz bəhrəsini verir, tədrisin keyfiyyəti ildən-ilə daha da yüksəlir.***

Gəncliyimiz, gələcəyimiz

# Uğurun açarı inamdır



Hər il ali məktəbə qəbul olunanların və yüksək bal toplayanların sayının artması bunu bir daha təsdiq edir. Bu il də muxtar respublikada ali məktəblərə qəbul göstəricilərində artım olub, 331 məzun 500-700 arasında bal toplayıb. Avqustun 20-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Bu gün ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu təhsil strategiyası ölkəmizin intellektual potensialının yüksəlişinə öz töhfəsini verir. Artıq Azərbaycan dünyada təkcə sabitliyin təmin olunduğu və iqtisadiyyatı inkişaf edən ölkə kimi yox, həm də elm və təhsil ölkəsi kimi tanınır. Naxçıvan Muxtar Respublikasında da təhsil quruculuğu əsas vəzifələr sırasındadır. İstər ümumtəhsil, peşə, istərsə də orta ixtisas və ali təhsil məktəblərində yaradılan şərait hərtərəfli inkişaf edən, formalaşmış gəncliyin yetişməsinə hesablanıb. Yeni texnologiyaların və distant təhsilin tətbiqi, müasir tədris metodlarından istifadə dünya təhsil sisteminə inteqrasiyanı sürətləndirib”.***

Bu il ümumtəhsil məktəblərini 2803 məzun bitirib. Yüksək bal toplayan abituriyentlərin 40-ı Culfa ümumtəhsil məktəblərinin məzunlarıdır. Naxçıvan Muxtar Respublikası üzrə qəbul imtahanlarında ən yüksək nəticəni də Akademik Həsən Abdullayev adına Culfa şəhər 1 nömrəli tam orta məktəbin məzunu Millət Hacıyev göstərib.

695 bal toplayan tələbə 2001-ci ildə Culfa şəhərində anadan olub. 2007-ci il sentyabr ayının 15-i Culfa şəhər Akademik Həsən Abdullayev adına 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə qəbul edilib. 2018-ci ildə həmin məktəbi yüksək qiymətlərlə başa vurub. Məktəb illərindən dəqiq və texniki fənlərə marağının böyük olduğunu deyən Millət riyaziyyat, biologiya, kimya, fizika fənlərini dərindən öyrənib. Məktəbdə oxuduğu illərdə uğurları çox olub.

Millət IX, X, XI siniflərdə təhsil aldığı illərdə Naxçıvan Muxtar Respublikası üzrə biologiya fənnindən keçirilən olimpiadada 3-cü yerə layiq görülüb. IX sinifdə Azərbaycan Respublikası üzrə biologiya fənnindən keçirilən olimpiadada 2-ci yer tutaraq gümüş, XI sinifdə isə 3-cü yer tutaraq bürünc medalla təltif olunub. 2017-ci ilin oktyabrında Bakıda keçirilən Azərbaycan uşaqlarının IV Ümumrespublika Forumunda, həmin ilin dekabrında isə “Xəmsə” milli intellektual oyununun 5-ci Azərbaycan çempionatında iştirak edib. Məktəbdə keçirilən imtahanlarda həmişə 600 baldan yuxarı nəticə göstərib.

Millətin qəbul imtahanlarına hazırlaşmaq istəyən şagirdlərə tövsiyəsi düzgün vaxt bölgüsü aparmaq, səbirli, təmkinli olmaq, dərslərə məsuliyyətlə yanaşmaq və daim çalışmaqdır: “Oxumaq dünyadan qopmaq, hər kəsdən uzaq durmaq, sadəcə, kitaba bağlanmaq deyil. Oxumağı bir əyləncə halına gətirərək daha yaxşı nəticələr əldə etmək olar. Gələcəkdə yalnız uğur qazanmaq istəyirsinizsə, bu gün yaşadığınız hər anın dəyərini bilin və sizə verilən tapşırıqları vaxtında, məsuliyyətlə yerinə yetirin. Ən böyük güc inamdır. Uğur qazanacağınıza, hər şeyin yolunda gedəcəyinə həmişə inanın. Bunun üçün də çox çalışmaq lazımdır. Daim çalışan, öz üzərində işləyən adam heç vaxt həyatda və bu həyatın qarşımıza çıxardığı çətin sınaqlarda uduzmaz. Bütün abituriyentlərə bundan sonra da uğurlar arzulayıram”.

Millət Azərbaycan Tibb Universitetində Müalicə işi ixtisası üzrə təhsilini davam etdirəcək. O, tələbəlik həyatının ilk uğurlu və yaddaqalan hadisəsi kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək bal toplayan tələbələrlə görüşündəki iştirakını sevinclə qeyd etdi: “Bu görüşdə muxtar respublikada təhsilə verilən dəyərin, qiymətin bir daha şahidi oldum. Cənab Sədrin qarşısında çıxış edəndə isə ayrı bir həyəcan, sevinc və qürur hissi keçirdim. Əlbəttə ki, Vətəninin, xalqının tərəqqisini, gənclərin gələcəyini daim düşünən, bu yolda bütün səylərini əsirgəməyən rəhbərlə görüş hər bir gəncin arzusudur. Bu gün mən ən böyük arzuma çatdım. Bir arzum isə bu gün ən müasir maddi-texniki bazaya və zəngin kitabxanaya malik olan, informasiya texnologiyaları və elektron tədris vəsaitləri ilə təchiz edilmiş məktəbimizdə yüksək biliklərə yiyələnərək tələbə adını qazanmaqla reallaşdı. Bundan sonrakı məqsədim ali məktəbdə də yaxşı oxumaq, Vətənimə, millətimə layiqli vətəndaş və ən əsası da gələcəyin peşəkar həkimi olmaqla xalqıma daim ləyaqətlə xidmət etməkdir”.

Culfa şəhər 1 nömrəli tam orta məktəbin direktoru İlqar Cəfərovla da həmsöhbət olduq. Məktəb kollektivinin yaşadığı qürur və sevinci bizimlə bölüşən direktor bildirdi ki, muxtar respublikada təhsil sahəsinə göstərilən dövlət qayğısı, yaradılan müasir şərait bundan da yaxşı nəticələr qazanmağı tələb edir. Sevindirici haldır ki, orta məktəblərdə keçirilən imtahanlarda, olimpiadalarda, eləcə də qəbul imtahanlarında iştirak edən naxçıvanlı şagirdlər həmişə seçilir. Bu il muxtar respublika üzrə ən yüksək nəticəni məktəbimizin məzunu Millət Hacıyev göstərib. Bu həm məktəb kollektivinin, həm də valideynlərinin sevincinə səbəb olub.

İlqar müəllim onu da vurğuladı ki, bu il məktəbi 23 məzun bitirib. Onlardan 16-sı qəbul imtahanında iştirak edərək müvəffəqiyyət qazanıb. Qəbul olunan tələbələr Naxçıvandakı ali və orta ixtisas təhsili müəssisələrində oxumağa üstünlük veriblər.

Bütün bunlar belə deməyə əsas verir ki, bu gün muxtar respublikada təhsilə göstərilən diqqət və qayğı nəticəsində hərtərəfli təhsil alan, Azərbaycan vətəndaşı adını şərəflə daşıyan vətənpərvər gənclər yetişəcək, xalqımıza fədakarlıqla xidmət göstərəcəklər.

**Güntac ŞAHMƏMMƏDLİ**

*İllər öncə təhsil aldığım Gəncə Dövlət Universitetində mənim Naxçıvandan olduğumu öyrənən müəllimimin “Naxçıvanda yediyim ovma pendirin dadı hələ də damağımdan getməyib” cümləsi mənə adi görünmüşdü və düşünmüşdüm ki, kənddə nənəmin hər gün kilolarla tutduğu pendirin digər bölgələrin pendirindən nə fərqi var? Buraya qonaq gəlib pendirimizi dadanlar da, hardasa, Naxçıvan pendirinin dadına baxanlar da onun böyük ləzzətə malik olduğunu bildirir.*

**Yurdumuzun nemətləri**

## Dadlı-duzlu Naxçıvan pendiri



Naxçıvanın hansı kəndinə getsək, heyvandarlıqla məşğul olan hər bir ailədə üzlü, üzsüz, qaşar, sərmə, axtarma, ovma, döymə, motal kimi pendir növlərinin hazırlandığının şahidi olarıq.

Təcrübəli, əməksevər qadın, 95 yaşlı Dilbər Məmmədova ilə həmsöhbət olduğumuzda o, südün sağılmaq qaydasından tutmuş pendirin ərsəyə gəlməsindən, heyvanın bəslənməsinin pendirin dadına necə təsir etməsindən söhbət açır:

– Pendir qoyun, inək, keçi, camış südündən hazırlanır. Keçi südündən olan pendir ən qiymətli sayılır. El arasında deyirlər ki, “buranın torpağı duzludur, heyvanları da bu torpaqda bitən duzlu ot yediyindən əti də, südü, pendiri də dadlı olur”.

Dilbər nənə deyir ki, dadlı-tamlı süddən ləziz pendir məhsulu almaq həm də səriştə, bacarıq tələb edir. Məhz pendiri vurarkən südün temperaturunu, onun əmələgəlmə vaxtını diqqətdə saxlayırlar ki, pendir nə qıcqırıb deşik-deşik, nə də bərkiyib zay olsun. Həmçinin süzmə qaydasına, kəsilməsinə, duzlanmasına və pendirin saxlanmasına dəqiq riayət olunması südün tərkibindəki dadı üzə çıxarır. Pendir hazırlamaq üçün görülən bu iş heyvan sağılmağa başladığı dövrdən həyata keçirilir. Ancaq təcrübəmdən deyə bilərəm ki, yaxşı pendir tutmaq üçün “quyruq doğdudan”, yay yarı olandan sonra bu işə başlanılmalıdır. Xalq arasında adı, dadı dillər əzbəri olan arxac, qaşar, axtarma pendirləri daha çox ilin bu dövründən sonra tutulur. El arasında bu cür pendirlərə “payız pendiri” deyirlər. İlin bu dövründə süd yağlı olduğundan ondan hazırlanan pendirlər daha dadlı olur.

Nənə deyir ki, tutulan pendirin dadı mayasından çox asılıdır. Pendir hazırlamaq üçün mayadan (pendir mayası) və təbii halda bitən dələmə otundan istifadə edilir. O, mayanın hazırlanma qaydasından da danışır: – Qursaq duzlanıb qurudulur. Pambıq parçadan hazırlanmış kisədə saxlanılır. Buğda qaynadılır, soyuduqdan sonra şüşə və ya şirli qaba tökülür, üzərinə kiçikölçülü şəffaf daşduz parçası, təmiz yuyulmuş bir çiy yumurta atılır. Bir ovuc noxud, bir ovuc kəklikotu, iki tikə qənd, bir qursaq qoyulduqdan sonra on gün torpaqda saxlanılır. On gün tamam olduqdan sonra torpaqdan çıxarıb süzüb, istifadə edirik. “Əl mayası” dediyimiz bu mayanı kiməsə borc verməz, mal-qaramızın südünün bərəkətini itirəcəyini düşünərdik. Heyvandarlıqla məşğul olan hər kəsə ruzi-bərəkət arzulayanda “mayanız bol olsun”, – deyərdik. Obaya köçməzdən əvvəl ilk hazırlığımız maya tutmaq olardı ki, orada mal-qaranın südü bollaşanda pendir tutmağa mayamız olsun. Hər dəfə Batabat yaylağına çıxanda özümlə ən azı üç litr maya aparardım ki, orada pendir tuta bilim.

Dilbər Məmmədova onu da deyir ki, dövr dəyişib, çoxlu üsullar yaranıb. İndi təbii yolla maya hazırlamaq da artıq yaddan çıxıb. İndiki gənc nəsil əziyyət çəkib təbii yolla maya hazırlamaq yerinə başqa üsullarla hazırlanan mayalara üstünlük verir.

Dilbər nənə pendiri tutmaq qaydasından da danışır: – Azca isidilmiş südə pendir mayası qatılır, 1-2 saatdan sonra uyuşmuş süd pambıq parçadan tikilmiş torbaya tökülür, üzərinə ağır olan bir neçə daş qoyulur. Daş nə qədər ağır olsa, o qədər faydalıdır. Bir neçə saatdan sonra bərkiyən pendir torbadan çıxarılır və doğranıb duzlanılır. Naxçıvan duzunun az üyüdülmüşündən istifadə olunması pendiri həm dadlı, həm də keyfiyyətli edir. Üzərinə pendir suyu tökülür. Təzə pendir duzlanılıb bir qaba yığıldıqdan sonra onun özünün tərkibindəki su da yavaş-yavaş çıxmağa başlayır ki, suyunun da qalması onun uzun müddət keyfiyyətli şəkildə saxlanmasına imkan verir.

Nənənin sözlərinə görə, Naxçıvanda pendirin bir çox növü var. Məsələn, onlardan biri də axtarma pendiridir. Onu əldə etmək üçün yaylaqda olan yağlı, südlü qoyunları seçib (pendirin adı da buradan yaranıb) sağır, südündən pendir hazırlayırlar. Pendirin, adətən, tutulduqdan ən az üç ay sonra süfrəyə gətirilməsi daha məsləhətlidir. Çünki bu zaman o daha yaxşı dəymiş olur. Naxçıvanın dadı damağımızdan getməyən pendirinin, məncə, ən gözəli və dadlısı ovma pendirdi. Qış aylarında şirin çay, ovma pendirlə lavaş dürməyinin yerini heç nə verə bilməz. Yəqin ki, bu sözümü bütün naxçıvanlılar da, bu qədim yurdun qonağı olub ovma pendirin dadına baxanlar da təsdiqləyər.

“Döymə, ovma pendir necə ərsəyə gəlir?” sualıma nənənin cavabını dinləməyə dəyər: – Bəlkə də, bu pendirin dadlı olmasının səbəbi onun zəhmətlə hazırlanmasıdır. Adi pendir hazır olduqdan, yəni turşusunu alıb bərkiyəndən sonra onu təmiz yuyub ən az bir gecə qurumağa qoyuruq. Sonra pendir daşının üstündə döyür və yaxud əl ilə ovuruq. Ovduqdan sonra pambıq süfrəyə bükür, bir-iki saat saxlayırıq. Qabaqcadan yuyulub qurudulmuş küpə, şüşə balona az-az töküb əlimizlə və ya toxmaq ağacı ilə küpənin içərisində döyürük. Nənə deyir ki, pendiri küpəyə nə qədər sıx yığsaq, o daha yaxşı qalar. Küpənin içərisində hava qalarsa, ovma pendir keyfiyyətini itirər və tez bir zamanda xarab olar. İçərisinə tərxun, kəklikotu vurub, küpələrə, şüşə balonlara yığıb ağzına tənzif, tut yarpağı, sələ (sələ qoyun dərisindən hazırlanır) qoyub bağlayırlar. Sonra küpəni tərsinə çevirib torpağa basdırırlar. Arxa tərəfi bir az çöldə qoyulur ki, hava keçsin (dəysin). Əgər pendirə hava dəyməsə və ya suyu süzməsə, onda xarab olar. Yayın isti günlərində pendir basdırdığımız yeri tez-tez su ilə islatmağımız məsləhətdir. Pendiri ovulmamış, doğranmış şəkildə torpağa basdırıb saxlamaq da olar. Bu barədə danışan nənə deyir ki, doğranmış pendir bir küpəyə yığılır, üzərinə duzlu su əlavə edilir, ağzı möhkəm bağlanır, çox da dərin olmayan bir çuxur qazılıb basdırılır. Bu üsulla saxlanılan pendirin dad-tamı da ovma pendir kimi olur. İstəyə görə suyuna dağ nanəsi, kəklikotu, tərxun atmaq olar.

Motal pendiri dağ kəndlərində və arandan dağlara köç edən əhalinin daha çox hazırladığı pendir növüdür. Pendir motalın (bu, heyvan dərisindən hazırlanır) yunlu hissəsinə (yunu kəsib bir santimetr saxlanılır) yığılıb saxlanıldığı üçün belə adlandırılır. Torpağa basdırılıb qış üçün saxlanılır. Pendir motalda göyərməsin (xarab olmasın) deyə, arabir o biri tərəfi üstə də çevirmək lazımdır. Əvvəllər şor, pendir saxlamaq üçün xırdabuynuzlu heyvanların dərisindən hazırlanmış “çılğı” adlanan məişət əşyasından da istifadə olunurdu.

Şorun hazırlanması barədə də danışan Dilbər nənə deyir ki, süd ocağın üstünə qoyub qaynadılır, içərisinə duz atıb çürüdülür. Bu zaman su hissəsi üzə, şoru isə qazanın dibinə çökür. Ocaqdan götürüb süzmək üçün torbalara tökülür. Torbanın üzərinə daş qoyulur ki, süzmə prosesi axıra qədər getsin. Süzülüb qurtardıqda çürümüş şoru ləyənlərə tökür, sonra yumrulayıb qurudurlar. Bu vaxt onun yaxşı qurumasına çalışmaq lazımdır, çünki yaxşı qurumazsa, xarab olar. Bunun üçün hazırlanmış yumrular orta hissəsindən deşilir. Quruduqdan sonra torbalara yığıb qış üçün saxlanılır.

*Naxçıvan əhalisinin minilliklər boyu qışa tədarük prosesində hazırladığı süd-ağartı məhsulları içərisində xüsusi yeri olan pendir el arasında süfrənin “şahı” adlanır. Dadı dillər əzbəri olan Naxçıvan pendirinin sirri isə ondadır ki, doğma təbiətimiz zəngindir, bu zənginlikdən istifadə edərək hazırlanan süd-ağartı məhsulları həm də zəhmətsevər insanların əməyinin nəticəsində hasilə gəlir.*

**✍ Ramiyyə ƏKBƏROVA**

## Qulaqcıqdan mütəmadi istifadənin fəsadları

*İnsanı gün ərzindəki yorğunluqlardan uzaqlaşdıran, ona yüksək bədii zövq aşılayan ən yaxşı vasitələrdən biri musiqiyə qulaq asmaqdır. Musiqi insanın ruhudur, onu başqa aləmlərə alıb aparır. Belə ki, gözəl bir mahnı dinlədiyimiz zaman əhvalımız yüksəlir, bayağı olanlara qulaq asdığımız zaman isə bu hissi yaşaya bilmirik. Ancaq, təəssüflər olsun ki, günümüzdə bunu arzuolunmaz vərdiş şəklinə salan gənclərimiz çox saydadır. Onlar bir çox mənfi vərdişlərə yiyələniblər. Bunlardan biri də qulaqcıqlar ilə musiqiyə qulaq asmaqdır. Qulaqcıqlar artıq dəbli aksesuara çevrilib. Gənclər arasında yayılan bu vərdiş, əslində, zərərlidir və fəsadları da çoxdur.*

Bu fəsadları ətraflı öyrənmək məqsədilə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasına üz tutduq. Orada lor həkimi Vəli Qəhrəmanovla həmsöhbət olduq. O bildirdi ki, son zamanlar bəzi cavanlar arasında eşitmənin pozulması hallarının artmasını müşahidə edirik. Bəzi gənclər ən çox qulaq kanalına daxil olan qulaqcıqlardan istifadə edirlər. Çünki bunlar qulaqda rahat şəkildə oturur. Bununla bağlı maraqlı bir hadisəni danışmaq istəyirəm. Bu yaxınlarda bir nəfər eşitməsində problem olması ilə bağlı mənə müraciət etmişdi. Onu müayinə etdikdən sonra bəlli oldu ki, qulaqcığın rezin hissəsi uzun zaman onun qulağında qalıb. Artıq karlığa səbəb olacaqdı ki, həmin insanı əməliyyatla bundan xilas etdik. Sözügedən qulaqcıqlarla musiqiyə qulaq asan gənclərimiz, təəssüflər olsun ki, hər gün artmaqdadır. Həmin gənclər onun yaratdığı fəsadlar barədə düşünmür, istədikləri qədər bu zərərli cismi qulaqlarında saxlayırlar. Bu cür insanlarda eşitmənin pozulması halı baş verərək inkişaf edir. Onlar 30-40 yaşlarına gəldikləri zaman isə artıq eşitmənin ciddi zəifləməsi və hətta karlığa doğru getməsi prosesi baş verir.

Həkimin sözlərinə görə, qulaqcıqlarla uzun müddət ərzində musiqiyə qulaq asmaq sinir sisteminə də mənfi təsir göstərir. Belə ki, insanda gərginliyə, diqqətin pozulmasına, başağrılarına, təzyiqin yüksəlməsinə səbəb olur. Qulaqcığın səs şiddəti birbaşa qulaq pərdəsinə, daxili qulağa və qulaq sinirinə istiqamətləndiyi üçün zərəri çox böyükdür. Mütəmadi və yüksək səslə musiqi dinləmək qulaqda qalıcı cingildəmə və uğultu yaradır. Ümumiyyətlə, qulaq çox həssas bir orqan olduğu üçün daim diqqətlə yanaşmağımız tələb edilir. Qulaqlarımız uca səslərin təsirinə yalnız qısamüddətli tab gətirə bilir.

Vəli Qəhrəmanov deyir ki, əgər insan belə səslərin uzun müddət təsirində qalsa, bu, mütləq eşitmənin pozulmasına gətirib çıxaracaq. Təkcə yüksək səs deyil, həmçinin qulaqcıqların digər təhlükəsi ondan ibarətdir ki, yad cisim daim qulaqların daxilində olduqda, qulaq iltihabları yarada bilir. Əgər başqasının qulaqcığından istifadə etsək, bu, daha da təhlükəli olar. Çünki hər bir insanın dərisində minlərlə mikrob yaşayır. “Sahibinə” ziyan vurmayan mikroblar digər insanda iltihaba və müxtəlif problemlərə yol aça bilər. Bu səbəbdən də başqalarına məxsus qulaqcıqlardan istifadə etmək qəbulolunmazdır. Qulaqcıqlardan istifadə nəticəsində bu gün gənclərin bir çoxunun eşitmə orqanında problem var. Səs yüksəkliyinə bağlı olaraq inkişaf edən akustik fəsad daxili qulaqda “ilbiz” adı verilən hissədəki eşitmə hüceyrələrində (saxlayıcı, kirpikli və sütunvarı) və ya sinirlərində meydana gəlir. Təkcə qulağımıza yox, eyni zamanda qulaqcıqdan davamlı istifadə insanın əsəblərinə mənfi təsir edir, hətta kəskin emosional stress yaradaraq, psixi travmalara səbəb olur. Bu isə öz növbəsində, vestibulyar aparatın funksiyasının pozulmasına gətirib çıxarır. Nəticədə, ürəkbulanma, qusma halları baş verir. Əgər bu hal tez-tez baş verərsə, xəstədə tam karlığa yol açır.

Son vaxtlar yolda, ictimai nəqliyyatda qulaqcıqla musiqi dinləyən gənclərlə çox rastlaşırıq. Bu gənclər əksər hallarda yanında baş verən proseslərin belə, fərqinə varmırlar. Onlar yalnız öz aləmlərində və virtual dünyalarında olurlar. Yol gedən zaman yüksək səslə qulaqcıqlardan istifadə edərək, yanlarından ötüb keçən nəqliyyat vasitələrinin səsini belə eşitmir və bu da bədbəxt hadisə ilə nəticələnir.

“Təbii ki, qulaqcıqdan lazım gəldiyi zaman qısamüddətli istifadə etmək olar”, – deyən Vəli Qəhrəmanov onu da diqqətimizə çatdırdı ki, həkimlər insanların sağlamlığının qayğısına qalırlar. Ancaq insan özü də gərək özünün həkimi ola, sağlamlığına ciddi yanaşa. İnsanlar bu gün böyük zövq alaraq istifadə etdikləri qulaqcığı 40 yaşında eşitmə aparatı ilə dəyişmək istəmirsə, bu kimi qaydalara əməl etməlidir.

**Telli MUSTAFAYEVA**

## Aztəminatlı ailələrin özünüməşğulluğu ilə bağlı növbəti tədbir

Aztəminatlı ailələrin özünüməşğulluğunun təmin olunması üçün növbəti tədbir Sədərək rayonunda keçirilib. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Vüsal Süleymanlı diyarımızda aztəminatlı ailələrə göstərilən dövlət qayğısı istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Bildirilib ki, ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması məqsədilə görülən tədbirlərin davamı olaraq uzun müddət ünvanlı dövlət sosial yardımı alan və fərdi təsərrüfatlarını qurmaq üçün müraciət edən ailələrə köməklik göstərilməsi nəzərdə tutulub. Verilən tapşırığın icrası ilə əlaqədar müraciət edənlər içərisində Sədərək rayonunda 3 aztəminatlı ailə müəyyənləşdirilib.Sədərək kənd sakinləri Əpruz Elyasovaya, Zülfiyyə Kazımovaya və Heydərabad qəsəbə sakini Yeganə Bayramovaya yanında balası olan iribuynuzlu mal-qara verilib.

Sonra aztəminatlı ailə təmsilçilərinə verilən mal-qara ilə bağlı sənədlər təqdim olunub.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 7, ev 23-də yaşayan Allahverdiyev Səfəralı Dadaş oğlunun adına olan 1453 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Hüseynov Sahil Akif oğlunun adına olan zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 606